Təhsil Nazirliyi və "Uşaqların xilası" (Save the Children) təşkilatı ilə birgə yaradılan işçi qrupu tərəfindən "Uşaqların tolerantlıq təhsili proqramı" çərçivəsində vəsaitlərin ilkin variantı hazırlanıb. İbtidai sinif müəllimləri üçün vəsaitlər "Sülh mədəniyyətinə dair tədris vəsaiti", şagirdlər üçün isə "Qısa hekayələr toplusu" adlanır.

Layihə çərçivəsində hazırlanmış həmin tədris vəsaitlərinin cari ilin mart-aprel aylarında Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərinin, Abşeron, Quba, Qazax, Şəki, Lənkəran, Goranboy və Kürdəmir rayonlarının seçilmiş pilot məktəblərinin müəyyənləşdirilmiş I-IV siniflərində sınaqdan keçirilməsi nəzərdə tutulub.

Onu da qeyd edək ki, həmin vəsaitlər Təhsil Nazirliyi tərəfindən yerlərə göndərilmiş rəsmi məktublar əsasında sınaqdan keçiriləcək.